# Danış ki, səni görüm

## (Fəxrəddin Sərrastla (Usenov) səmimi söhbət)

**İlqar Daşdı Müzəffəroğlu**
AJB üzvü

*Xeyli müddətdir ki, təvazökar, ziyalı, ağır otur-batman gəl xarakterli, şair inanclı insan, Gəncə Dövlət Universitetinin tarix fakültəsinin dosenti Fəxrəddin Sərrastla (Fəxrəddin Usenov) Gəncə şəhərində həmsöhbət olurduq. Onun mənalı, məntiqi söhbətlərindən doymaq olmur, hər görüşdə mənə xoş təəssüratlar yaradırdı. Nəhayət, qarşımda məqsəd qoydum ki, bu nurani ziyalının daxili dünyasının qapısını mümkün olduğu qədər oxucuların üzünə açım. Budur, Fəxrəddin müəllimlə iş otağında qarşı-qarşıya əyləşib, şirin-şirin söhbətə başlayırıq:*

**-Salam, hər vaxtınız xeyir Fəxrəddin müəllim. İnsan üçün həyatda ən dəyərli zamandır. Öncə bu dəyərli zamanınızdan mənə ayırdığınız hissəyə görə təşəkkür edirəm. Əgər hazırsınızsa sizinlə müsahibəyə başlayaq:**

- Əlbəttə İlqar müəllim, məmuniyyətlə.

**- Dünyanın ən böyük filosoflarından biri hesab olunan Sokrat demişdir ki, "Danış ki, səni görüm." Sizi yaxından "görmək" üçün, buyurun özünüz haqqında oxucularımıza məlumat verin.**

-"Allaha və Peyğəmbərinə(s) ən yaxın insan sözünü salamla başlayandır." Salam, İlqar müəllim. Mən Usenov Fəxrəddin Eyib oğlu 3 aprel 1946-cı ildə Qərbi Azərbaycanın Qarabağlar mahalının (sonralar Vedi adlanır) Yellicə kəndində kalxozçu ailəsində anadan olmuşam. Atam İsmayılov Eyib, anam SuraSeyyid Alməmməd qızı kalxozçu idilər. Ailəmiz 1953-cü ildə məcburi olaraq bir çox soydaşlarımız kimi doğma yurd-yuvalarından deportasiya edilmişdir. Əvvəlcə Şəmkir rayon Lenin (indiki Çinarlı) kəndində, sonra Tərtər rayonunun Qaraqoyunlu kəndində, ordan da keçmiş Kirovabad (indiki Gəncə) şəhərində məskunlaşdıq. O vaxtdan bu günə qədər Gəncə şəhərində yaşayıram. İlk təhsilimi Gəncə şəhər 15 saylı M. Əzizbəyov adına məktəbdə (8-ci sinifə qədər) almışam. 1961-ci ildə o vaxtkiKirovabad Toxuculuq Texnikumuna daxil olub 1965-ci ildə bitirmişəm. 1965-ci ildə texnikumun axırıncı kursunda oxuyanda fəhlə-gənclər məktəbində 11-ci sinifi bitirib Həsən bəy Zərdabi adına Kirovabad Dövlət İnstitutunun (indiki Gəncə Dövlət Universiteti) tarix fakültəsinə qəbul olunub 1969-cu ildə İnstitutu bitirmişəm. 1969-cu ildən 1983-cü ilə kimi təyinatla Sabirabad rayonunun müxtəlif kəndlərində müəllim kimi fəaliyyət göstərmişəm. Sonrakı illərdə Yüngül Sənaye Texnikumunda müəllim, Gəncə şəhər partiya komitəsində "Bilik cəmiyyətində" məsul katib vəzifəsində çalışmışam. 1991-ci ildən Gəncə Şəhər Universitetində dosent işləyirəm. 1986-cı il iyulun 14 tarixində Azərbaycan SSR Elmlər Akademiyasının tarix İnstitutunda namizədlik dissertasiyası müdafiə edib, tarix elmləri namizədi alimlik dərəcəsi adı almışam. Müdafiənin gedişatında ilk dəfə elan etdim ki, 1918-ci il Bakı şəhərində müsəlmanların soyqırımını bolşeviklərlə daşnaklar törətmişdilər. O dövr üçün adi adamlara bu sözü demək böyük təhlükə sayılırdı. O sözü işlədən şəxsi siyasi dustaq kimi ömürlük həbs cəzası gözləyirdi. O vaxtdan uzun illər keçsə də, elmi ictimaiyyətdə bu məlumat qalmışdır. Müstəqillik dövründə Gəncə Dövlət Universitetinin müəllimi Samir Pişnamazzadə Polad oğlu həmin salonda alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edərkən Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Milli Məclisin sabiq deputatı, Akademik Yaqub Mahmudov ondan soruşmuşdu: "Sizə kənar rəyi kim vermişdi?" Mərhum Samir müəllim cavab



vermişdir ki: "Gəncə Dövlət Universitetinin müəllimi, tarix elmləri namizədi Usenov Fəxrəddin Eyib oğlu". Yaqub müəllim zala müraciət edərək: "Elmar müəllim, de görək Usenov bu zalda müdafiə edərkən nə bəyan etmişdi?" Elmar müəllim cavab verərək demişdir ki: "1918-ci ilin martında Bakıdakı müsəlmanların soyqırımını bolşeviklərlə daşnaklar həyata keçirmişdir". Hörmətli Yaqub müəllim deyir ki, Sovet dövrünün amansız vaxtı bu şəkildə sözü demək üstündə, o, böyük bəlalar çəkə bilərdi. İndi zaman dəyişib, sovet imperiyası devrilib. Hər kəs bu cür sözləri rahatlıqla dilinə gətirir. Qəhrəmanlıq odur ki, bu cür məlumat xarakterli sözləri o vaxt deməyə risk edəsən. Özü də bu riski taleyinin həll olunduğu bir məkanda üzərinə alasan. Bunu ancaq qəhrəmanlıq və Vətən sevgisinin təzahürü kimi qəbul edirəm.

**- Bir az da, qələm yoldaşlarınız və dostlarınız haqqında danışardınız.**

- Mənim yaxşı etibarlı, təmənnasız dostlarım olub, bu gün də var və ümid edirəm ki, Uca Yaradan mənə bəxş etdiyi ömür yolunda atdığım hər addımda əsl dostlar qazanacağam. Ümumiyyətlə mən dostluğa xoşbəxtlik rəmzi kimi baxıram. Bu yerdə mərhum Şıxəli Qurbanov nə gözəl deyib:

**Dostdan əsirgəmə lazımsa canın,**
**Çalış, eldən gəlsin şöhrətin, şanın.**
**Bir xoş nemətidir dostluq dünyanın,**
**Olsa dərin olsun, üzdən olmasın...**

**- O dostlardan ən çox kimləri xatırlayırsınız?**

- Əsl dostlardan söhbət gedirsə, onlar xatırlanmır. Əgər biri xatırlanırsa deməli, o, yaddan çıxıb ki, xatırlana. Mənim xatırlanası dostlarım olmayıb çox şükür. Hər biri qəlb sarayımda əbədi təxt quran şəxslər olub.

**- Ən çox hansı yazarların əsərlərini oxuyursunuz?**

- Demək olar ki, klassiklərin bir çoxunu mütaliə edirəm. Ancaq bunların içərisində ən çox sevdiyim Nizami Gəncəvi, Məhəmməd Füzuli, Səməd Vurğun yaradıcılığıdır.

**- Bir tarix müəllimi kimi peşənizi sevirsinizmi?**

- Dahi Nizami Gəncəvi demişdir ki:

**"Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan!"**

İnsan hər hansı peşəyə yönəlirsə ona öz töhfəsini verməlidir, o peşənin vurğunu olmalıdır. Mənə bu peşəni sevdirən Qərbi Azərbaycanın ilk tarix müəllimlərindən biri hesab olunan əmim İsmayılov Bəhrəm Hüseyn oğlu olub və tarixin dərinliklərini, o, mənə öyrədib. Onun dərin bilgisi, sadəliyi, milli qüruru heç vaxt yadımdan çıxmaz. Bir sözlə, o, həyatda mənim ilk və son idealımdır. Mən peşəmin vurğunuyam. Tarix xalqımın keçmişi, müasir gəncliyin isə gələcəyidir. Ümummilli lider Heydər Əliyev demişdir ki: "Tarixin hər cümləsi, hər sözü bizim üçün əzizdir, toxunulmazdır! Çünki bu bizim tariximizdir, ana tariximizdir, Vətən tariximizdir! Onu olduğu kimi yazmaq lazımdır!" Uşaqlar məktəbdə öncə tarix fənninə bağlanıb, sevməlidirlər. Tarixi bilməyən özünü tanımır, keçmişindən bixəbərdir. Keçmişini bilməyənin gələcəyi olmaz. Tarix fənni mənə imkan verir ki, ədəbiyyatı mütaliə edim. Vaxt olub ki, bir tarixi faktı dəqiqləşdirmək üçün çoxlu bədii əsərlər oxumuşam. Bu həm də mənə zəmin yaradır ki, tələbələri də bu yolla öyrədirəm. Çünki, bədii əsərlərin sətirlərində gizlənən tarix daha obrazlı və yaddaqalan olur.

**- Nə üçün məhz tarix elmini seçdiniz?**

- İnsanın özünün tarixi (tərcümeyi-halı) olmasa, onu yalnız yaxın qohumları, ətrafı tanıyır deməkdi. İnsan var Vətən tarixidir, insan var millətinin, xalqın tarixidir, insan da var öz ailəsinin, özünün tarixidir. Nizami Gəncəvi Vətən, millət və dünya tarixidir. Biz onun əsərləri ilə tanış olanda 11 və 12-ci əsrin ictimai, iqtisadi və fəlsəfi tarixini öyrənirik, görürük və dərk edirik. Bu səbəbdən mən tarixçi olmağa qərar verdim.

**- Tarixin fəlsəfəsini necə izah edərdiniz?**

- Tarix yalın tarix elmi deyil, o həm də müxtəlif elmlərlə vəhdətdə yaranmış, inkişaf etmiş və sonda elm kimi təkmilləşdirilmişdir. Tarixin fəlsəfəsi, xüsusiyyətləri, qanunauyğunluğu və s cəhətləri mövcuddur. Biz hansı dövrün tarixini öyrənəndə mütləq o dövrün fəlsəfi inkişafına da nəzər salmalıyıq. Məsələn, ibtidai icma quruluşunu öyrənəndə, onun məhsuldar qüvvələrini, istehsal münasibətlərini də zəruridir ki, tədqiq edək, öyrənək. İbtidai insan ilk növbədə iqtisadi və nəzəri zəmində inkişaf edir, formalaşır, yaranır. İnsan fiziki inkişafla bərabər mənəvi cəhətdən də inkişaf edir. Bu yolla zaman keçdikcə təkmilləşir, təbii varlıqdan ictimai varlığa çevrilir. Misal: hörümçək də tor qurur, insan da. Hörümçək qurduğu tor çox zərif, cəlbedici olur, insan qurduğu tor isə nisbətən gobud və qeyritəbii olur. Burda əsas fərq odur ki, hörümçək qurduğu tor şüursuz, özünü digər həşəratlardan qorumaq məqsədiylə qurulduğu halda, insan qurduğu tor şüurlu və özündən gücləri ovlamaq, ram etmək məqsədiylə qurulur. Bu inkişaf dialektikasına görə nəticə çıxarsaq görürük ki, instinkt olduğu üçün hörümçək hörümçəkliyində qalır, insan isə bu prosesdə iştirak edə-edə inkişaf edir, insan kimi formalaşır. Yəni, ideyalar insanın yaradılmasında, inkişaf etməsində əvəzi olmayan rol oynayır. Bu baxımdan görürük ki, bütün tarix boyu ideyalar əvvəlcə yaranıb, sonra onlar həyata keçiriləndə maddi qüvvəyə çevrilir, yaxud gerçəkləşir. Və ya başqa müsal: İbtidai icma quruluşu içində quldarlıq quruluşunun ictimai, siyasi, iqtisadi cəhətləri ideyalar formasında ilk dəfə meydana çıxıb, reallığa çevrilmişdir.

**- Kamil insan kimə deyirlər?**

- Kamil insan və kamil olmayan insan var. Həyatın əsas qanunlarını dərk edən, anlayan, onu yerinə yetirən və ya reallaşdıran kamil insandır. Kamillik bütün, tam olmaqdır.

**- Özünü dərk etmək üçün hansı mərhələdən keçməlisən?**

- Özünü dərk etmək kamillik mərhələsidir. Həyatın nəzəri, ictimai, iqtisadi məzmunu və mahiyyətini dərk edən, ona əməl etməyi qarşısına məqsəd qoyan və bunu özündə, həyatında əks etdirən insan özünü dərk etmiş insandır. İnsan həm ictimai, həm də fiziki varlıqdır. Bu iki cəhət birlikdə olanda özünüdərk prosesi başlayır. Özünüdərk elmi, nəzəri, fəlsəfi, təcrübə cəhətləri ilə fərqlənir. Hər insan özünü dərk etmək səviyyəsinə çata bilmir. Həyatı dərk etmək, cəmiyyəti dərk etmək, məqsədi, amalı anlamaq mühüm şərtdir. Deməli özünü dərk etmək üçün həyatın bütün mərhələlərindən keçməli, bu prosesdə nəzəri, elmi təcrübələrlə zənginləşməlisən. Bu gedişatda həyat sənə təsir etdiyi kimi, sən də həyata təsir etməlisən. Dialektik inkişafda olursansa çoxlarından fərqli olaraq hər tərəfli formalaşmalısan. Daha qısa desək, Çətinə, boşa düşüb çıxmalısan. Atalar demişkən: "İgid odur atdan düşüb atlana, igid odur hər əzaba qatlana!"

**- Sovet Azərbaycanın tarixi ilə müstəqil Azərbaycan tarixinin fərqini nədə görürsünüz?**

- Sovet Azərbaycanın tarixi xüsusi icazə və nəzarətdə yazılıb. Bu o deməkdir ki, bu tarix sərbəst yox, sifarişli şəkildə yazılmış bir tarixdir. Bu tarixin həm müsbət, həm də məcburiyyətdən gələn yanlış tərəfləri var. İndiki tarix sərbəst və azad şəkildə yazılır. Bu tarixdə də yanlış və xeyirli cəhətlər var. İndi də, həddən artıq sərbəstlikdir. Bütün bunlara baxmayaraq bu tarix bizim tarixdir, onu gələcək nəsillərə daha təkmilləşmiş, dəqiq formasını çatdırmaq biz tarixçilərin ümdə vəzifəsidir. Nə tarixi geri qaytarmaq, nə də onu yenidən yazmaq olar. Necə deyərlər: olan olub, keçən keçib. Tarixi hadisələr həm obyektivdir, həm də subyektiv. Obyektivliyi yenidən yaratmaq, olan tarixi bu aspektə dəyişmək mümkün deyil. Məsələn: "haylar" Qərbi Azərbaycanda olan minlərlə tarixi adları dəyişdirib, yeni adlar qoymaqla, güya mövcud tarixi silirlər. Birincisi, əvvəl olan türk adları min illər öncə məhz o torpaqlarda tarixləşib. Tərixləşən tarixi geri qayıdıb təzələmək olmaz, ikincisi o milli tariximiz biz türklərə məxsusdur, üçüncüsü, indi onların qoyduqları qondarma adların heç bir iqtisadi, ictimai, siyasi, elmi tarixi yoxdur. Onların bu işi həm də özlərinin işğalçılığını elə özləri tərəfindən təsdiqləyir. Hazırda "Ermənistan"da bir nəfər də olsun başqa millətlərin nümayəndəsi, o cümlədən azərbaycanlı yaşamır. Azərbaycanda isə minlərlə başqa millətlərin nümayəndələri, o cümlədən "hay"lar yaşayır. Bu isə xalqımızın tarixi kökü, multikulturalizmliyi, tolerantlığı özündə əks etdirməsinin əyani nümunəsidir...

**(ardı gələn sayımızda)**